*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*



**Heydər ƏLİYEV**


# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

**Qəzet 1992-ci il fevralın 11-dən çıxır** **22 noyabr 2017-ci il** **№ 88 (2205)** **Qiyməti 25 qəpik**


## Rəsmi xronika

✓ *Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 19-da Rusiya Federasiyasının xarici işlər naziri Sergey Lavrovun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. Qonaqları salamlayan Prezident İlham Əliyev bildirib ki, Azərbaycan-Rusiya münasibətləri yüksək səviyyədədir. "Biz artıq bunu çoxdandır strateji tərəfdaşlar arasında münasibətlər kimi səciyyələndiririk və əminəm ki, gələcəkdə əməkdaşlıq potensialını gücləndirəcəyik. Düşünürəm ki, bizim münasibətlərimiz bütün qonşular və tərəfdaşlar üçün nümunə ola bilər.*

*Əlbəttə, bu gün həm də Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı məsələlərdən danışacağıq. Azərbaycan bu münaqişənin tezliklə nizamlanmasında son dərəcə maraqlıdır."*

*Sergey Lavrov da öz növbəsində qeyd edib ki, ATƏT-in Minsk Qrupunun həmsədrlər üçlüyünün üzvü Rusiya da Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində irəliləyişi təmin etməkdə maraqlıdır və bu istiqamətdə fəal səylər göstərmək lazımdır.*

* * *

✓ *Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 17-də Özbəkistan Respublikasının Baş nazirinin müavini Alişer Sultanovu qəbul edib.*

*Dövlətimizin başçısı ölkələrimiz və xalqlarımız arasında qardaşlıq münasibətlərinin ortaq tarix, mədəni və dil amillərinə əsaslandığını vurğulayıb. Prezident İlham Əliyev siyasi əlaqələrin yüksək səviyyədə olduğunu deyərək, dövlət başçıları arasında qarşılıqlı etimadın və beynəlxalq strukturlarda qarşılıqlı dəstəyin olmasının əhəmiyyətini qeyd edib. Dövlətimizin başçısı, eyni zamanda, ticarət dövriyyəsi, energetika, nəqliyyat və digər sahələrdə əməkdaşlığın genişləndirilməsi üçün səylərin artırılmasının vacibliyini bildirib.*

**AZƏRTAC-ın materialları əsasında**

Ali Baş Komandan İlham ƏLİYEV:

*Bundan sonra da ordumuza nə qədər vəsait lazımdırsa, o qədər də ayrılacaqdır. Heç bir məhdudiyyət olmayacaq. Hərbi gücümüz, eyni zamanda, torpaqlarımızın azad olunmasında və ərazi bütövlüyümüzün bərpasında öz rolunu oynayır və oynayacaq. Aprel döyüşləri, torpaqlarımızın bir hissəsinin işğalçılardan azad edilməsi ordumuzun gücünü bütün dünyaya göstərmişdir.*

# Təlimlər ordunun döyüş qabiliyyətinin artırılmasında əsas amillərdən biridir



Dünyanın məşhur hərb xadimlərindən biri - böyük rus sərkərdəsi Suvorov öz zamanında təlimlərin keçirilməsini yüksək dəyərləndirib və qeyd edib ki, təlim əsgərin akademiyasıdır. Doğrudan da, təlimlər ən mühüm hərbi əməliyyat tədbiri olaraq şəxsi heyətin döyüş vərdişlərinin möhkəmləndirilməsində, qələbəyə olan inamın formalaşmasında başlıca rol oynayır.

**(Ardı 2-ci səhifədə)**

# Təlimlər ordunun döyüş qabiliyyətinin artırılmasında əsas amillərdən biridir

**(Əvvəli 1-ci səhifədə)**

Son illər Azərbaycanın ordu quruculuğunda xüsusi diqqət yetirilən məsələlərdən biri də müxtəlif miqyaslı hərbi təlimlərin müntəzəm keçirilməsidir. Diqqət cəlb edən məqam ondan ibarətdir ki, əvvəlki dövrlərdən tam fərqli olaraq on minlərlə ehiyatda olan hərbi mükəlləfiyyətlilər də təlimlərə cəlb edilir və onların hərbi ixtisaslarına uyğun təkmilləşdirilməsi həyata keçirilir. Bundan əlavə müasir silah və texnikaların sirlərinin keçmiş döyüşçülərə aşılanması olduqca əhəmiyyətlidir, axı zamanında onlar belə silahlardan istifadə etməyiblər.



Çoxdanın söhbətidir, cəbhə xəttində taborların birində keçirilən təlimdən qeydlər götürəndə indi vəzifədə olan hörmətli zabitimiz gəlib çıxmışdı və təlimin ordunun şəxsi heyəti üçün nə qədər vacib, əhəmiyyətli olduğunu bildirmişdi. "Təlim zabitin də, gizirin də, əsgərin də həyatında olduqca önəmlidir, çünki bu sınaq onların hərbi bacarığını, səriştəsini qiymətləndirməyə imkan verir. Kim təlimdə fərqlənirsə, deməli, müharibə meydanında qələbə onundur", - demişdi. Azərbaycanın ordu rəhbərliyi də təlimlərin müntəzəm və əhatəli keçirilməsində maraqlıdır ki, şəxsi heyətin döyüş vərdişləri daha da təkmilləşdirilsin. Bu həqiqəti 2016-cı ilin aprel döyüşləri də təsdiqlədi və bu döyüşlər onu da sübut etdi ki, Azərbaycan zabiti, Azərbaycan əsgəri daim qələbə əzmindədir, üzərinə düşən vəzifələri inamla yerinə yetirəcəkdir.

Bir çox hərbi ekspertlər, həmçinin beynəlxalq analitiklər ordumuzun hərbi təlimlərə tez-tez cəlb edilməsinə birmənalı yanaşmırlar. Bəziləri Azərbaycanı sürətlə silahlanmada və müharibəyə hazırlıqda qınayır. Amma bir həqiqəti deməyi bacarmırlar ki, torpaqları işğalda olan, bir milyon vətəndaşı qaçqın vəziyyətində yaşayan məhz Azərbaycandır. 25 ildən artıq müstəqilliyi dövründə humanist dəyərlərə önəm verən dövlətimiz yenə də üzləşdiyi münaqişənin sülh yolu həllinə tərəfdardır. Gəlin görək qarşı tərəfin, yəni, Ermənistanın buna münasibəti necədir? İşğalçı dövlət isə çirkin niyyətindən əl çəkməyərək həmişə sülh danışıqlarından boyun qaçırır və mövcud status-kvonu uzatmağa çalışır. Buna dünya dövlətlərinin biganə qalması isə adamda ikrah doğurur. Əgər Ermənistan sülh yolu ilə münaqişənin həllinə tərəfdar deyilsə, onda Azərbaycanın öz hərbi gücünü artırması və bu məqsədlə təlimlərə üstünlük verməsi qaçılmazdır. Bu fikri Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev istər ölkə ictimaiyyəti qarşısında, istərsə də başqa dövlətlərin, habelə NATO, ATƏT kimi mötəbər qurumların rəsmiləri ilə görüşlərində də dəfələrlə bəyan edib.



Silahlı Qüvvələrin döyüş hazırlığı planına əsasən, komanda-qərargah hərb oyunları müxtəlif qoşun növlərində keçirildi. Müdafiə naziri general-polkovnik Zakir Həsənov hərb oyunlarına cəlb olunan rəhbər heyətlə noyabrın 17-də xidməti müşavirə keçirtdi. Mətbuat Xidmətinin yaydığı məlumatda da göstərildiyi kimi, baş idarə, idarə rəisləri, Silahlı Qüvvələrin qoşun növləri komandanları, birlik və birləşmə komandirlərinin iştirakı ilə keçirilən müşavirədə qoşunlara təlimlə əlaqədar əməliyyatların planlaşdırılması üzrə göstərişlər və döyüş sərəncamları çatdırıldı.



Komanda-qərargah hərb oyunları Hərbi Dəniz Qüvvələrində də keçirilib. Müdafiə Nazirliyinin rəhbər heyəti komanda idarəetmə məntəqəsindən dəniz poliqonunda təlim tapşırıqlarını yerinə yetirən bölmələrin manevrlərini, döyüş atışlarını izləyib. Bu təlimdə Azərbaycanın Xəzər dənizindəki ərazi sularında olan enerji strukturlarının mühafizəsi üzrə Hərbi Dəniz Qüvvələrinin gəmi qrupunun əməliyyatlarının planlaşdırılması, aviasiyanın dəstəyi ilə şərti düşmənin terror-diversiya qrupunun zərərsizləşdirilməsi üzrə döyüş tapşırıqları həyata keçirilib. Təlimin nəticələri bir daha sübut edib ki, Silahlı Qüvvələrimizin digər qoşun növləri kimi, hərbi dənizçilərimiz də qarşıya qoyulan döyüş tapşırıqlarını yüksək səviyyədə icra etməyə qadirdirlər.



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin digər bir məlumatına əsasən, Əlahiddə Ümumqoşun Ordunun birbaşa və əməliyyat tabeliyində olan birləşmə və hissələrində də komanda-qərargah hərb oyunları keçirilib. Burada da müxtəlif kateqoriyadan olan zabitlərin iştirakı ilə baş tutan təlim zamanı hərbi bölmələr müxtəlif dərəcəli döyüşə hazırolma vəziyyətinə gətirilib.

Bildiyimiz kimi, Azərbaycanın müstəqilliyinin bərpa edilməsinin 25-ci ildönümünü qeyd etdiyimiz günlərdə Naxçıvanda yaradılan ilk milli ordunun da 25 illiyi böyük təntənə ilə keçirilib və bu münasibətlə Əlahiddə Ümumqoşun Ordunun paradı təşkil olunub. Müasir silah və texnikaların nümayiş etdirildiyi parad hər bir vətəndaşımızda sonsuz qürur yaradıb. Bizdə belə inam formalaşdırıb ki, Azərbaycan Silahlı Qüvvələrinin mühüm tərkib hissəsi olan Naxçıvan qarnizonunun hərbi hissə və birləşmələri də nəinki bu qədim diyarın müdafiəsində etibarlı dayanır, həmçinin Azərbaycanın qarşısında dayanan döyüş vəzifəsinin uğurla icra edilməsinə hər zaman öz töhfəsini verməyə hazırdır.

Yenə də Müdafiə Nazirliyi Mətbuat Xidmətinin növbəti məlumatında oxuyuruq. "Komanda-qərargah hərb oyunları çərçivəsində cəbhəboyu zonada yerləşən müxtəlif təlim poliqonlarında qoşunların praktik fəaliyyəti yoxlanılaraq döyüş atışları icra edilib. Bir neçə hərbi hissədə yerinə yetirilən təlimlərin əsas mərhələsində hücum əməliyyatları zamanı qoşunların qarşılıqlı əlaqəsi, hərtərəfli təminatı, idarəetmənin təşkili və digər taktiki fəaliyyətlər yerinə yetirilib."

Məlumatda həmçinin qeyd olunur ki, Müdafiə naziri general-polkovnik Zakir Həsənov komanda-qərargah oyunlarına cəlb edilən şəxsi heyətin peşəkarlıq səviyyəsini yüksək qiymətləndirib. Təlimin yekunlarını təhlil edərkən birmənalı qeyd etmək lazımdır ki, bütün qoşun növlərində təmsil olunan şəxsi heyət qarşıya qoyulan tapşırıqların öhdəsindən bacarıqla gəlib.



Müdafiə Nazirliyi növbəti komanda-qərargah hərb oyunlarını yüksək səviyyədə keçirməklə bir daha sübut etdi ki, Azərbaycan Ordusunun şəxsi heyəti dövlətin və xalqın inamını, etibarını hər addımda doğrultmağa hazırdır.

**"Azərbaycan Ordusu"**

# Özbəkistanın Müdafiə naziri Silahlı Qüvvələrin Hərbi Akademiyasında olub

*Özbəkistan Respublikasının Müdafiə naziri general-mayor Abdusalom Azizov və rəhbərlik etdiyi nümayəndə heyəti ölkəmizə rəsmi səfəri çərçivəsində Silahlı Qüvvələrin Hərbi Akademiyasında olub.*



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, qonaqlar Silahlı Qüvvələrin Hərbi Akademiyasında ulu öndər Heydər Əliyevin xatirəsinə yaradılmış guşə ilə tanış olduqdan sonra hərbi təhsil istiqamətində ikitərəfli əməkdaşlıq sahəsində imkanlar müzakirə edilib.

Nümayəndə heyəti Silahlı Qüvvələrin Hərbi Akademiyasının Adyunktura və elm şöbəsi, kafedralar, tədris prosesi və elektron kitabxana ilə tanış olub.

# Silahlı Qüvvələrin Hərbi Akademiyasında təkmilləşdirmə və ingilis dili kurslarının növbəti buraxılışı keçirilib

*Silahlı Qüvvələrin Hərbi Akademiyasının təkmilləşdirmə və ingilis dili kurslarının növbəti buraxılışı keçirilib.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, buraxılış mərasimlərində ümummilli lider Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü uğrunda şəhid olmuş vətəndaşlarımızın xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Silahlı Qüvvələrin Hərbi Akademiyasının rəisi general-leytenant Heydər Piriyev çıxış edərək məzunları təbrik edib və onlara gələcək xidməti fəaliyyətlərində uğurlar arzulayıb.

Tədbirdə akademiyanın professor-müəllim heyəti ilə yanaşı, Amerika Birləşmiş Ştatlarının ölkəmizdəki hərbi attaşesi polkovnik Adam Kavlik də iştirak edib.

Kursu bitirənlərə diplom və sertifikatlar təqdim olunub. Sonda məzunlarla xatirə şəkilləri çəkilib.

*Ön xətdən reportaj*

# Qələbə soraqlı Azərbaycan əsgəriyik

*Dan yeri yenicə sökülür, ana təbiətin gözəlliyini seyr edə-edə Azərbaycan əsgərinin görüşünə tələsirik. Dağların arxasından boylanan payız günəşi xəyallarımı isidir, düşüncələrimi dincəldir. Torpağa səpələnən xəzan da öz gözəlliyi ilə adamı düşüncələrə qərq edir. Mənə elə gəlir ki, bu dağların hər qarışı, hər daşı qəhrəmanlıq tariximizi özündə yaşadır.*



Sakit bir mehrlə açılan səhər çağında bizi müşayiət edən zabit Seymur Abıyev isə diqqətimizi quruyan çaya yönəldir.

- Bir vaxtlar buradan axan dağ çayından indi əsər-əlamət yoxdu. Elə bil çay da torpaqlarımızın həsrətinə dözə bilmədi, döyüşlərdə həlak olan oğullarımıza yas saxladı, göz yaşını axıda-axıda qurudu, - deyir. - Vətən naminə canlarını qurban verən oğullarımızın acısını hər kəs kimi bu çay da qədərincə yaşayır. Ancaq inanıram ki, ağrı-acı tezliklə sona çatacaq, həsrət vüsalla əvəzlənəcək və bu çayın da möhtəşəmliyi özünə qayıdacaq.

Yolun elə bir yerinə gəlib çatırıq ki, bizi əhatələyən torpaq sədlərindən, mavi səmadan və Bülbülün ifasında dinlədiyimiz "Şuşanın dağları başı dumanlı" musiqi parçasından başqa heç nəyi görmür və eşitmirik. Bilmirəm irəlilədiyimiz yolun çəkilməsində həlak olan və yaralanan oğullarımız haqqında aldığım informasiyadanmı, dahi Bülbülün ifasında dinlədiyimiz musiqi parçasındanmı, quruyan çayın yaratdığı təəssüratların təsirindənmi kövrək anlar yaşadığımı etiraf etməliyəm.

Ön xətdə Azərbaycan əsgəri ilə görüşümüzdən sonra həmin kövrək və sıxıntılı anlar geridə qalır.

Leytenant Elgün Mustafazadənin ilk sözü bu olur ki, məqsədimiz torpaqlarımızı azad etmək və dövlətimizin ərazi bütövlüyünə nail olmaqdır. "Bu gün Azərbaycan zabitinin və əsgərinin ruhunu kimsə öldürə bilməz. Başımıza od yağdıra bilərlər. Bu, onların erməni xislətidi. Amma bizi sındıra bilməzlər. Biz öz torpağımızdayıq, haqq savaşına qatılmışıq. Azərbaycan əsgəri öz iradəsi ilə müharibənin yaratdığı istənilən şəraitə hazırdı. Aprel döyüşləri də buna sübutdu. Süfrəmizdə çörək kəsib, bizə xəyanət edən mənfur qonşular, siyasi maraqlar üçün insanlara zülm edənlər, bilsinlər ki, haqq öz yerini tapacaq. Azərbaycan Ordusunun şəxsi heyəti buna bütün varlığı ilə inanır".

Quba rayonundan hərbi xidmətə çağırılan və 13 aydı xidmət edən əsgər Murad Şıxməmmədov hesab edir ki, güclü ordunun əsgəri kimi müharibənin başlamasından qorxmur, əksinə, bu anı səbirsizliklə gözləyir. "Dövlətimizin gücünü hiss etdikcə daha mübariz olur, torpaqlarımızın işğaldan azad edilməsi üçün alışıb-yanırıq. Hər birimizin arzusu budur ki, torpaqlarımızın düşməndən azad edilməsi bizim hərbi xidmət dövrümüzə təsadüf etsin."

- Biz hər an döyüşə hazır olduğumuzu hiss etdiririk, - deyə əsgər Cəmil Abbaslı söhbətə qoşulur. - Qüdrətli Azərbaycan Ordusunun əsgəri olaraq başa düşürük ki, ərazilərimizi geri qaytarmaq üçün daha güclü, qətiyyətli olmalıyıq. Ona görə də Vətənin keşiyində məğrur dayanır və igidlərimizdən, qəhrəmanlarımızdan nümunə götürürük.



- Aprel döyüşləri də sübut etdi ki, əsgərlərimizin hər biri qəhrəmanlıq göstərməyə qadirdir. Azərbaycan əsgərlərinin hünəri, şücaəti düşmənlərimiz üçün göz dağı, xalqımız üçün isə fəxr və qürur yeridir.

Söhbətin bu yerində leytenant Elgün Mustafazadə də bildirir ki, əsgər yoldaşının qeyd etdiyi qəhrəmanlarımızın hünər və şücaəti onlar üçün ən dəyərli örnəkdir. Doğrudan da, igidlərin vətənpərvərliyi, hünəri xalqın, cəmiyyətin mənəvi inkişafında yeni bir mərhələ açır və bu mərhələdə əqidəyə sədaqət şəxsi emosiyalardan qat-qat üstündür.

Əsgər Rəşad Əliyev isə deyir ki, burada bizimlə düşmən mövqelərinin ara məsafəsi yaxındır. "Xırda bir ehtiyatsızlıq faciəyə səbəb ola bilər. Buna görə də təhlükəsizlik qaydalarına maksimum riayət edirik. Əks halda düşmən snayperinin qurbanı ola bilərik. Bizim isə torpaqları azad etmədən ölməyə haqqımız çatmır. Çünki yaxşı bilirik ki, gündəlik tapşırıqları yerinə yetirməklə, təhlükəsizliyimizi təmin etməklə özümüzü işğal altındakı torpaqlarımızın azadlığı uğrunda zəfər yürüşlərinə hazırlayırıq".

Əsgərlər Murad İbrahimov və Elməddin Qurbanov da silahdaşlarının sözünü təsdiqləyərək dedilər ki, vətənpərvərlik ruhu yüksək olan Azərbaycan əsgərinin gücü ilə Azərbaycan Ordusunun qələbə sorağı, üçrəngli bayrağımızı Qarabağda ucaldacağımız gün uzaqda deyil.

**Kapitan**
**Məhəmməd ƏLİYEV,**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**Coşqun CƏFƏROVUNDUR**

# Təkmilləşdirmə kursu başa çatıb

*Əlahiddə Ümumqoşun Orduda zabit heyətinin təkmilləşdirilməsi kursunu müvəffəqiyyətlə bitirən zabitlərin növbəti yuxarı vəzifələrə təyin olunmaları münasibətilə buraxılış mərasimi keçrilib.*



Buraxılış mərasiminə hazırlıqla bağlı məruzə edildikdən sonra Azərbaycan Respublikasının Dövlət himni səsləndirilib.

Zabitlərdən Mənsim Əhmədov çıxış edərək bildirib ki, Əlahiddə Ümumqoşun Orduda peşəkar hərbçilərin hazırlanmasına xidmət edən kurslar uğurla icra olunur. "Bu kursları bitirən məzunlar Vətənimizin müdafiəsində peşəkar döyüşçü kimi dayanır, vəzifələrinin öhdəsindən layiqincə gəlirlər".

Mərasimdə məzunlar adından kapitan Amil Tağıyev çıxış edərək bildirib ki, işğalda olan torpaqlarımızı azad etməyə və şəhidlərimizin qisasını almağa hər an hazırıq. "Bunu təmin etmək üçün zabit heyətinin təkmilləşdirilməsi kursunda əldə etdiyimiz taktiki bilikləri uğurla tətbiq edəcək və bizə öyrədilənləri daim rəhbər tutacağıq".

Azərbaycan Respublikası Müdafiə nazirinin müavini - Əlahiddə Ümumqoşun Ordu Komandanı general-leytenant Kərəm Mustafayev kursu müvəffəqiyyətlə bitirən məzunları təbrik edib, hərtərəfli döyüş və kadr hazırlığından danışıb. Ordu komandanı bildirib ki, oktyabrın 18-də Azərbaycanın Dövlət Müstəqilliyi Günündə Naxçıvanda ilk milli hərbi hissənin yaranmasının 25-ci ildönümünə həsr edilmiş hərbi paradda ordumuzun gücü bir daha nümayiş etdirilib.

Məzunlara sertifikatlar təqdim edilib. Kurs birincisi tərəfindən yaş kötüyünə buraxılış emblemi vurulub.

Zabit heyətinin təkmilləşdirilməsi kursunu uğurla başa vuranların ixtisaslarına uyğun yuxarı vəzifələrə təyin olunmaları ilə bağlı əmr oxunduqdan sonra məzunların tribuna önündən təntənəli keçidi olub.

Sonda məzunlarla xatirə şəkli çəkdirilib.

**Leytenant
Nəriman NƏCƏFOV,
foto
əsgər
Rauf ƏLƏSGƏROVUNDUR**

*Gənc zabitlərimiz*

# "Ali Baş Komandanımızın əmrini gözləyirik"



Bu gün müstəqil Azərbaycan qüdrətli orduya malikdir. Ordunun güclənməsi, dövlət və xalq üçün vacib amildir. Çünki Vətənimizi, müstəqil dövlətimizi daim qorumaq qüdrətinə malik olmalıyıq. Ordumuz möhkəmlənir ki, ölkəmizin ərazi bütövlüyünü bərpa edə bilsin. Bütün bunlara görə Azərbaycan gəncliyinin qarşısında duran ən vacib məsələlərdən biri məhz orduda xidmət etmək, döyüş vərdişlərinə yiyələnməkdir.

Döyüş bacarığının təmin edilməsi nəzəriyyənin öyrənilməsindən və öyrənilənlərin təcrübədə tətbiq edilməsindən keçir. Bu məqsədlə "N" hərbi hissəsinin qabaqcadan təsdiq edilən planına əsasən, şəxsi heyət və texnikalar təyin olunan təlim məntəqəsinə çıxarılıb. Şəxsi heyətin müasir vasitələrdən, silah və texnikalardan səmərəli istifadə edərək şərti düşmənin qarşısının alınması məqsədilə həyata keçirdiyi atış və atəşin idarə olunması məşqini izləyirik.

Bir daha əmin oluruq ki, peşəkar, vətənpərvər zabitlərin hesabına ordumuz bu gün Azərbaycanın müstəqilliyinə yönəldilən hər hansı bir qəsdə yüksək səviyyədə cavab verməyə hazırdır. Belələrindən biri ilə - baş leytenant Ceyhun Xankişiyevlə məşq prosesində tanış oluruq. Öyrənirik ki, həmsöhbətimiz Laçın rayonunun Daşlı kəndində anadan olub və zabit olmaq məqsədilə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini bitirib.

Zabitin Azərbaycan Ordusunda xidmətə başladığı ilk gündən əsas məqsədi işğalda olan torpaqlarımızın düşməndən azad edilməsinə töhfəsini verməkdir: "İnsan hər şeydən əvvəl torpağı, Vətəni ilə qürurlanır, fəxr edir. Ancaq Laçın bu gün yoxdu. 24 ildir ki, Laçınsızıq. Laçının dağlarına, torpaqlarına, ata-babalarımızın yurduna neçə illərdir həsrətik. İstər Laçın olsun, istərsə də başqa rayonlar, hər biri Azərbaycanımızın bir parçası olmaqla hamımızın dədə-baba ocağıdır. Bu gün bir məqsədimiz var: torpaqlarımız mütləq işğaldan azad olunmalıdı, başqa cür mümkün deyil. Çünki biz atalarımızın, babalarımızın ruhu qarşısında borcumuzdan torpaqları geri qaytarmaqla çıxa bilərik. Bunun üçün də Ali Baş Komandanımızın əmrini gözləyirik".

Bir qədər fikrə dalan baş leytenant deyir: "Aprel zəfəri bütün dünyaya Azərbaycanın gücünü, Azərbaycan Ordusunun nəyə qadir olduğunu, Vətən torpaqları üçün hər kəsin canından keçmək əzmini sübut etdi. Belə anları yaşadığıma, Azərbaycan Ordusunun zabiti olduğuma görə vüqarlanıram, fəxarət hissi keçirirəm. Məşğələlərdə döyüş səriştəmizi artırmaqla məqsədimiz aprel zəfərini davam etdirməkdir. Bu məşğələlərin hesabına şəxsi heyətin taktiki və texniki bacarıqları artır, əsgərlərdə fiziki, mənəvi-psixoloji və döyüş hazırlığına inam yaranır. Bununla da hərbi qulluqçularımız yüksək döyüş ruhuna malikdirlər, hər kəs üzərinə düşən vəzifənin öhdəsindən layiqincə gəlir."

Zabitlə söhbətdən sonra sevinirəm ki, Vətən torpağının hansı hissəsində xidmət etməsindən asılı olmayaraq hər zaman dövlətini, xalqını düşünən zabitlərimiz çoxdu. Böyük Atatürkün sözləri ilə desək: "Hər hansı bir ordunun dəyəri onun zabit və komanda heyətinin dəyəri ilə ölçülür".

**Kapitan
Məhəmməd ƏLİYEV,
"Azərbaycan Ordusu"**

*Nümunəvi xidmət*

# İşğalın sonuna az qalıb...

"N" hərbi hissəsinin döyüş mövqeyindəyik. Düşmənlə üzüzə dayanan Vətən keşikçilərinin görüşünə gəlmişik. Şəxsi heyətlə tanışlığım zamanı baş leytenant İsmət Əvəzzadə tərxis olunmağına sayılı günlər qalan əsgər Şamil Ağabəyovun nümunəvi xidmətindən danışır. Xidmətə gəldiyi ilk gündən məsuliyyətli, nizam-intizamlı olmasından, vətənpərvərliyi, qorxmazlığı ilə komandirlərinin və silahdaşlarının rəğbətini qazanmasından fəxrlə söz açır. "Gördüyünüz kimi, payız fəsli olsa da, artıq qar yağıb. Buranın sərt və uzun keçən qışı olur. Hava şəraitinin sərtliyinə baxmayaraq əsgərlərimizin hər biri mərdliklə xidmət edir, döyüş növbəsində ayıq-sayıq dayanır. Nümunəvi xidməti ilə seçilən əsgərlərimizdən biri də Şamil Ağabəyovdur. Bölmə komandiri kimi onunla fərdi söhbət apardığım bir məqamı xatırlayıram. Onda döyüş növbəsinə ilk dəfə çıxırdı. Bu məsuliyyətli və şərəfli vəzifəyə hazır olub-olmadığını soruşmuşdum. "Komandir, ön xətdə xidmət edəcəyimi eşitdikdə çox sevindim. Əsgər üçün səngərdə xidmət etmək ən şərəfli vəzifədir. Orta məktəbdə adları ilə qürur duyduğum qəhrəmanlarımızın xatirəsi yaşayır bu yerlərdə. Bu gün ilk dəfə döyüş növbəsinə çıxıram, bu vəzifənin məsuliyyətini yaxşı başa düşürəm. Bizə güvənən vətəndaşlarımızı qoruyuruq. Növbəm zamanı ayıq-sayıq olacaq, diqqətimi bir an belə düşməndən çəkməyəcəyəm. Onlardan qətiyyən qorxmuram. Əmin ola bilərsiniz ki, mən bu vəzifənin öhdəsindən uğurla gələcəm" demişdi. Belə vətənpərvər oğullarla bir sırada xidmət etmək seçdiyim peşəyə olan sevgimi daha da artırır, mənə sonsuz ruh yüksəkliyi aşılayır. Şamil kimi mənəvi keyfiyyətlərə malik oğul böyütdükləri üçün valideynlərinə dərin minnətdarlığımı bildirirəm", - baş leytenant İsmət Əvəzzadə deyir.

Belə vətənpərvər igidi tanımağın sevincini mən də yaşayıram. Neçə-neçə qəhrəman oğullarımızın cəng yeri olan barıt qoxulu səngərdə onun kimi bacarıqlı əsgərlər torpaqlarımıza keşik çəkir, işğalçıları ata-baba torpaqlarımızdan qovacaqları günün arzusu ilə xidmət edirlər. Düşmən təxribata əl atdıqda, atəşkəsi pozduqda heç nədən qorxub çəkinmirlər. Vətən uğrunda canlarından keçməyə, şəhid olmağa hər an hazırdırlar. Əsgər Şamil Ağabəyov da məhz belə igidlərdəndir. Döyüş növbəsində dayanıb iti baxışlarını düşmən tərəfdən ayırmayan məğrur əsgərin baxışlarında Vətən sevgisi, düşmənə nifrət sezilir. Növbəni təhvil verdikdən sonra onunla söhbətləşirəm. Hərbi xidmətə gəldiyi ilk günlərdən danışır. "Hərbi formanı geyinib ilk dəfə sırada dayandığım gün çox sevincli idim. Əsgər olmaq hər bir gənc kimi, mənim də ən böyük arzum olub. Həmin gün artıq arzuma çatmışdım. Bundan sevincli nə ola bilər ki", - əsgər deyir.



Ordu sıralarından tərxis olunmağa hazırlaşan müsahibim söhbətinə davam edərək komandirlərinin nəzərində nümunəvi əsgər adını qazandığı üçün qürur duyduğunu bildirir.

- Hərbi xidmətim dövründə silahlardan istifadə etməyi, döyüş hazırlığına və digər hərbi biliklərə yiyələndim, - deyir. - Həmçinin dözümlülük, mərdlik, qorxmazlıq kimi müsbət keyfiyyətlər qazandım. Yusif Şükürov, Yasin Muradov, Həsən Verdiyev... kimi dostlar tanıdım. Əsgərliyimi başa vursam da, torpaqlarımızın işğaldan azad olunması uğrunda silahdaşlarımla birlikdə döyüşə atılmağa hər an hazıram.

Şamilin nümunəvi xidmətinə görə komandanlıq tərəfindən həvəsləndirici məzuniyyətə də göndərildiyini öyrənirəm. Əsgər həmin gün keçirdiyi hisslərdən də danışır:

- Komandirimiz sıranın qarşısında nümunəvi xidmətə görə məzuniyyətə buraxıldığımı elan etdikdə qürur hissi keçirdim. Bunu sözlərlə ifadə edə bilmirəm. Evimizə gələndə ilk olaraq atamla qarşılaşdım. Çox sevindi, təəccübləndi. Biləndə ki, nümunəvi xidmətimə görə əlavə məzuniyyətə buraxılmışam, gözləri doldu, məni yenidən bağrına basıb, "halal olsun sənə, oğlum, Vətənə layiqli övlad böyütdüyüm üçün mən də fərəhlənirəm!" dedi.

Düşmənlə təmas xəttində yerləşən bölmənin ürəkaçan şəraitini, Şamil Ağabəyov kimi nümunəvi xidmət edən gənclərimizi gördükcə, Müdafiə naziri general-polkovnik Zakir Həsənovun hər bir əsgərə, döyüşçüyə yüksək qiymət verdiyinin, diqqət və qayğı göstərdiyinin bir daha şahidi oluram. Əsgərlərimiz də onlara göstərilən qayğıdan fərəhlənir, daha da nümunəvi xidmət etməyə çalışırlar.

Onlar da əmindirlər ki, işğalın sonuna az qalıb...

**Leytenant
Mahmud MÖHBALIYEV,
"Azərbaycan Ordusu"**

# Keçirilən təlimlər günümüzün reallığıdır

*Son illər Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi diplomatik yolla həllini tapa bilmədiyi üçün hərbi vasitələrdən istifadə istisna olunmur. Ermənistanın qeyri-konstruktiv mövqeyinə qarşı ordumuzda müxtəlif hərbi təlimlərin keçirilməsi də təqdirəlayiqdir. Hərb, həm Azərbaycanın elitasının, xüsusilə Prezident, Ali Baş Komandan İlham Əliyevin nitqlərində səslənir, həm də beynəlxalq ictimaiyyətdə döyüş ehtimalının artmasına narahatlığı formalaşdırır. Azərbaycanın dövlət başçısının müsahibələrindən birində söylədiyi - əgər bir ölkənin milli maraqları axıra kimi belə nəzərə alınmayacaqsa, nəzərdə tutulmayan gərginliklər də qaçılmaz olacaq - fikri işğalçı Ermənistana və onun havadarlarına layiqli mesajdır.*





Tarixi torpaqlarımızın işğal altında qalması tələb edir ki, Azərbaycan hər an müharibəyə hazır olsun. Gələcəkdə müqəddəs vəzifəmizin təmin edilməsinə yardımçı olacaq təlimlər, sözsüz ki, müharibənin başlanmasına əsas hazırlıq mərhələsi kimi başa düşülməməli, şəxsi heyətdə döyüş hazırlığının yüksəldilməsi, vərdişlərin təkmilləşdirilməsi, ağır şəraitdə aparılan müasir ümumqoşun döyüşünün hərbi elementlərinin qarşılıqlı fəaliyyəti və döyüş uzlaşmasının səviyyəsinin artırılması kimi qəbul edilməlidir. Ancaq inkar etmək olmaz ki, yeni texnoloji vasitələrin və silahların geniş tətbiqi ilə həyata keçirilən təlimlər torpaqlarımızın azad edilməsi naminə şəxsi heyətin döyüş hazırlığının artırılmasına xidmət edir.

Bu gün Azərbaycan Ordusu müxtəlif formalı təlimlərə üstünlük verməklə döyüş hazırlığını lazımi səviyyədə saxlamağa çalışır. Eyni zamanda təlimlər zamanı qoşunların döyüşə hazırolma səviyyəsinə gətirilmə qabiliyyəti, həmçinin maddi-texniki təminat məsələləri də yoxlanılır.

Beynəlxalq ictimaiyyətin müharibə ehtimalının olduğu bölgələr sırasında Qafqaz bölgəsi, xüsusilə Dağlıq Qarabağ ilk yerlərdən birini tutur. Eyni zamanda bir çox mütəxəssislər və politoloqlar bu ehtimal üzərində dayanır. Bütün bunlara baxmayaraq, ölkə Prezidenti İlham Əliyev yenə də danışıqlar limitinin bitmədiyini bildirir. Azərbaycanın həyata keçirdiyi hərbi təlimlər Ermənistanı da çox narahat edir.

Azərbaycan Ordusu aprel döyüşlərində gücünü düşmənə və onun havadarlarına göstərdi. Bu gün ordumuz Ali Baş Komandanın qeyd etdiyi kimi yenilməz ordudur: "...Azərbaycan Ordusu istənilən vəzifəni icra etməyə qadirdir. İşğal edilmiş torpaqlarda, Dağlıq Qarabağda elə bir hərbi hədəf yoxdur ki, bu gün biz onu məhv edə bilməyək. Bu gün Azərbaycan Ordusu güclü ordular sırasındadır. Aprel döyüşləri bunu bir daha göstərdi. Bu, böyük tarixi qələbə idi. Dünya bir daha gördü ki, Azərbaycan Ermənistanın işğalçılıq siyasəti ilə heç vaxt barışmayacaq. Biz öz ərazi bütövlüyümüzü bərpa etməliyik və edəcəyik".

Bu gün ölkəmiz Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllini sürətləndirmək istəyir. Ancaq bu, Ermənistan rəhbərliyinin sülh danışıqlarından boyun qaçırması səbəbindən reallaşmır. Azərbaycan və Ermənistan liderlərinin xeyli sayda görüşlərinə baxmayaraq, Dağlıq Qarabağ probleminin həllində əhəmiyyətli bir irəliləyiş təmin edilməyib. Ermənistanın ATƏT-in Minsk Qrupu həmsədrləri tərəfindən hazırlanan yenilənmiş Madrid prinsiplərinin qəbulunda zaman baxımından strateji davranması, Azərbaycanı alternativ həll axtarışına vadar edir. Azərbaycan 7 il bundan əvvəl hərbi doktrinasını qəbul etdi. Bu isə imkan verdi ki, Azərbaycan özünün milli təhlükəsizliyi baxımından siyasi, hərbi, iqtisadi, psixoloji üstünlüyə malik olsun.

Bu gün dünyada mövcud olan və ayaqda durmağı bacaran ölkələrin hamısı öz milli və hərbi təhlükəsizlik maraqlarını qorumağa çalışır. Bu baxımdan Azərbaycan indiki məqamda, Ermənistanın təhdidi ilə üz-üzə qaldığı bir zamanda milli və hərbi təhlükəsizliyinə xüsusi diqqət yetirir. Ölkənin iqtisadi inkişafı nəticəsində yeni silah və texnologiyaların alınması və istehsalı, ən vacibi daxili sabitliyin təmin edilməsi ilə düşmənə qarşı hərbi güc tətbiqi get-gedə əhəmiyyət qazanmağa başlayır. Silahlı Qüvvələrimizin uğurları da dünya dövlətlərinə diqtə edir ki, Azərbaycanla hesablaşmaq lazımdır. Bizim ölkə olaraq məqsədimiz, öz milli maraqlarımızı yüksək səviyyədə qorumaq, təhdidlərə qarşı barışmaz olduğumuzu dünya ictimaiyyətinə sübut etməkdir.

Azərbaycanın sahib olduğu iqtisadi imkanlar da bizə üzləşdiyimiz problemləri həll edə bilmək imkanı verir. Bu iqtisadi imkanlar müdafiə xərclərində əhəmiyyətli artım və hərbi sənayemizin inkişafına zəmin yaradıb.

Hərbi istiqamətdə olan uğurlarımız, Azərbaycanın hərbi büdcəsində görünən artım Ermənistanda narahatlıq doğurmaya bilməz.

Milli təhlükəsizliyin və milli gücün geniş əhatəsi, beynəlxalq əlaqələr və siyasət baxımından söz mövzusu olan təlimlər Şimaldan Cənuba doğru müəyyən narahatlıqlar doğurur. Azərbaycanın hərbi və milli təhlükəsizlik siyasəti, ərazi bütövlüyünün qorunması prinsipinə əsaslanır və iki əhəmiyyətli sənəddə bu fikir öz əksini tapıb. 2007-ci ilin mayında nəşr olunan "Azərbaycanın Milli Təhlükəsizlik Konsepsiyası" və 2010-cu ilin iyununda hazırlanmış "Azərbaycanın Hərbi Doktrinası" Azərbaycan Silahlı Qüvvələrinin infrastrukturunun, texniki təchizatının və müdafiə qabiliyyətinin NATO standartlarına uyğunlaşdırılması günün ən vacib tələblərindən biridir. Bununla Azərbaycan özünün müdafiə siyasətinin modernləşdirilməsinə xüsusi əhəmiyyət verir. Gözlənilən təhlükə və təhdidləri aradan qaldırmağı qarşıya məqsəd qoyan Azərbaycan ikitərəfli (Türkiyə-Azərbaycan), üçtərəfli (Türkiyə-Azərbaycan-Gürcüstan) və çoxtərəfli NATO təlimlərinə üstünlük verir. Bu, eyni zamanda ölkəmizin dünyanın ən böyük və qüdrətli hərbi təşkilatı olan NATO ilə hərbi əməkdaşlığına da təminatdır.

Müharibə ölkənin inkişafına güclü mənfi təsir edən vasitədir. Azərbaycan torpaqlarının işğalda olması, bölgənin sürətlə militarizasiyası, regionda mütəşəkkil cinayətlərin və terrorizmin doğurduğu çətinliklər, bir sıra daxili və xarici faktorlar milli təhlükəsizliyi təhdid edir. Bütün bunların qarşısını almaq üçün Azərbaycanın milli maraqlarını, yəni, bütövlükdə cəmiyyətin və dövlətin maraqlarını nəzərə almaq lazımdır.

Azərbaycanın milli maraqlarını ümumi olaraq bu şəkildə sıralamaq olar:

- dövlətin ərazi bütövlüyünün qorunması, beynəlxalq hüquqla tanınmış sərhədlərinin təhlükəsizliyinin təmin edilməsi;
- Azərbaycan xalqının həmrəyliyinin təmin edilməsi,
- Azərbaycançılıq ideologiyasının təşviqi;
- demokratiyanın və vətəndaş cəmiyyətinin inkişaf etdirilməsi;
- Azərbaycan vətəndaşlarının maraqlarının və hüquqlarının, həm daxildə, həm də xaricdə ən yüksək səviyyədə qorunması;
- ölkənin təbii qaynaqlarından istifadə edilərək iqtisadi sabitliyin təmin edilməsi, təhsil və texnoloji inkişaflara uyğunlaşdırmaq yolu ilə Azərbaycan xalqının layiq olduğu ən yaxşı səviyyədə həyat şərtlərinin təmin edilməsi;
- beynəlxalq siyasətdə sabit, demokratik bir dünya nizamının ortaya çıxmasına kömək edilməsi və bu mövzuda təsirli olunması.

Bundan başqa Azərbaycan milli maraqlarına qarşı olan və eyni zamanda aşağıda göstərilən təhdidləri nəzərə almalıdır:

- Azərbaycanın müstəqilliyini, ərazi bütövlüyünü aradan qaldırmaq cəhdləri;
- hüququn üstünlüyü və ictimai təhlükəsizliyinin təmin edilməsinə istiqamətlənən mənfi fəaliyyətlər;
- etnik, siyasi və dini fundamentalizm;
- terror və kütləvi qırğın silahlarının yayılması;
- regional münaqişələr və sərhəd sonrası cinayətlər;
- Azərbaycanın enerji infrastrukturuna istiqamətlənən fəaliyyətlər;
- iqtisadi qeyri-sabitlik;
- regional hərbi mərkəzləşmə.

Bütün bu söylədiklərimizi ümumi bir ifadə ilə belə qeyd edə bilərik ki, Azərbaycan hərbi baxımdan Silahlı Qüvvələrin inkişafını diqqətdə saxlamalı, ölkənin ərazi bütövlüyünün zamanında və lazım olduğu anda "asimmetrik" təhdidlərə qarşı cavab verəcək şəkildə modernizasiyası prioritetli hədəf olaraq davam etdirilməlidir.



Bir sözlə, Azərbaycanda intensiv təlimlərin keçirilməsi günümüzün tələbi, ordu quruculuğunda əhəmiyyət kəsb edən əsas amillərdəndir. Deməli, reallıq təlimlərin keçirilməsini labüdləşdirir və təlimlər günümüzün reallığına çevrilir.

**Kapitan**
**Məhəmməd ƏLİYEV,**
**"Azərbaycan Ordusu"**

# “Yenə tarix yazacağıq!”

Cəbhə xəttində yerləşən "N" hərbi hissəsindəki bölmələrdən birində müasir ideoloji mərkəz diqqətimi cəlb etdi. Yüksək tərtibatla hazırlanmış mərkəzdə ulu öndər Heydər Əliyevin və Ali Baş Komandan İlham Əliyevin əsgərlərlə görüşlərini, həmçinin Azərbaycan Silahlı Qüvvələrinin inkişafını mərhələ-mərhələ əks etdirən dəyərli eksponatlar asudə vaxtlarını əsasən burada keçirən gənc döyüşçülərin mənəvi hazırlığında mühüm rol oynayır.

Qrup rəhbəri baş leytenant Rəşad Qafarov bildirdi ki, əsgərlərlə həm ictimai-siyasi hazırlıq, həm də başqa mövzularda məşğələlər keçirilir, şəxsi heyət ordumuzun inkişaf tarixi haqqında məlumatlandırılır. "Əsgərlərimizi həm 1918-20-ci illər Azərbaycan Xalq Cümhuriyyəti dövründə respublikamızda ilk ordu hissələrinin yaranması, həm ümummilli liderimiz Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi müxtəlif tarixi mərhələlərdə ordu quruculuğunu inkişaf etdirmək, xalqımızın hərbi ənənələrinin davam etdirilməsi sahəsində həyata keçirdiyi məqsədyönlü islahatlar, həm də müasir dövrdə Azərbaycan Silahlı Qüvvələrinin formalaşmasında görülən işlər barədə hərtərəfli məlumatlandırmağa çalışırıq. Azərbaycan Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin cəbhə xəttinə səfərləri, aprel döyüşlərində fədakarlıq göstərmiş hərbi qulluqçuları mükafatlandırması ilə bağlı foto-stendlər də şəxsi heyətin marağına səbəb olur."



Söhbət zamanı öyrənirəm ki, müsahibim artıq 4 ildir ki, ön xətdə xidmət edir. Cəmşid Naxçıvanski adına Hərbi Liseyi və Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini bitirib.

Bu gün də zabitimiz şəxsi heyətə ordu quruculuğu, ordumuzda silahlanmaya verilmiş silah və texnikalardan, həmçinin "Azərbaycan Ordusu" qəzeti və "Hərbi bilik" jurnalında dərc edilən məqalələrin əsgərlərin istər döyüş, istərsə də mənəvi hazırlığında əhəmiyyətindən də danışdı.

15 aydır xidmət edən əsgər Rəfail Talıbzadə də fikirlərini bildirdi:

- Tariximizi öyrənməyə çalışmışam. Belə bir deyim var: "Keçmişini bilməyənin gələcəyi olmaz". Biz Azərbaycan Ordusunun əsgərləriyik. Tariximizi də böyük həvəslə öyrənirik. Ali Baş Komandanın əmriylə tarix yazmalıyıq. Bu şanlı tarixin əsası aprel döyüşlərində qoyuldu.

Hərbi xidmətə Tərtər rayonundan çağırılan əsgər İsmail İsmailzadə dedi ki, peşəkar, bacarıqlı komandirlərimizdən tariximizi də öyrənirik, istifadə etdiyimiz silahların taktiki-texniki xüsusiyyətlərini də. İctimai-siyasi hazırlıq dərsləri hərbi biliklərimizi, dünya görüşümüzü daha da artırır.

Digər əsgərlər - Səyyad Bayramov, Turan İsmayılov, Xalid Musayev doğma Vətənin hərb tarixinə böyük maraq göstərdiklərini qeyd etdilər. Tarixini unutmayan döyüşçülərimiz yaxın vaxtlarda yenə tarix yazacaqlar.

**Baş leytenant**
**Məhəmməd NƏSİRLİ,**
**"Azərbaycan Ordusu",**
**foto**
**C.CƏFƏROVUNDUR**

*Tibb xidməti*

# “Xidmətimlə qürur duyuram”



*Hərbi təbabətin əsas meyarı hərbi xidmətdə olan vətəndaşların sağlamlığının qorunub saxlanılmasına yardımçı olmaqdır. Onun nəzəri əsası tibb elmi olsa da, qoşunların spesifik şəraiti, döyüş travmaları və müharibə dövrü xəstəliklərinin özünəməxsus xüsusiyyətləri mülki səhiyyədəki qayda və tələblərdən tamamilə fərqlənir. Hərbi həkim müalicə-təxliyə, gigiyenik və epidemik tədbirləri eyni vaxtda yerinə yetirir və bu zaman ondan yüksək peşəkarlıq tələb olunur.*

Şəxsi heyətin sağlamlığına göstərilən qayğı, tibb xidmətinin maddi-texniki bazasının yenilənməsi sahəsində görülən tədbirlər hərbi qulluqçuların sağlamlığının qorunmasında vacib rol oynayır. Bu gün hərbi hissələrimizdə müasir tibb məntəqələri tikilib və yeni avadanlıqlarla təchiz olunub.

"N" hərbi hissəsində də yaradılmış müasir tibb məntəqəsindən qeydlər götürmək və burada əsgərlərimizə göstərilən tibbi xidmətlə yaxından tanış olmaq istədim.

Müalicə bölməsində əsgəri müayinə edən həkimə yaxınlaşıb həmsöhbət oldum. Tibb xidməti leytenantı Əsgər Məmmədovdur. Ordinator vəzifəsində xidmət edir. 2016-cı ildə Hərbi Tibb Fakültəsini bitirdikdən sonra bu hərbi hissəyə təyin olunub. Xidməti ilə qürur duyduğunu deyən zabitin əsgərlərin sağlamlığı ilə məşğul olmasının doğurduğu məmnunluq gözlərindən sezilirdi. Zabit son illər ərzində Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin orduya qayğısı sayəsində hərbi səhiyyənin də müasir tələblər səviyyəsində qurulmasından iftixarla danışaraq bildirdi ki, tibb məntəqəsinin müasir tibbi avadanlıqlarla təchiz edilməsi hərtərəfli müayinə və müalicələr aparmağa imkan verir.

- Orduda xidmət etmək ikiqat qürurvericidir. Ona görə ki, həm Silahlı Qüvvələrin zabiti, həm də vətənpərvər döyüşçülərimizin sağlamlığının keşiyində dayanan həkiməm. Əsgərlərimizə əlverişli tibbi xidmətin göstərilməsi üçün müasir şərait və imkanlarımız mövcuddur. Bizə müraciət edən hərbçiləri dəqiq müayinə edirik. Burada əsgərlər qısa vaxtda müalicə olunaraq bölmələrinə qayıdırlar. Vətəni müdafiə edən döyüşçülərin sağlamlığı üçün əlimizdən gələni əsirgəmirik. Çünki Vətənə sağlam övlad lazımdır. Ümummilli liderimiz Heydər Əliyevin sözü ilə desək, Vətənə sağlam gənclik, sağlam əsgər gərəkdir.

Sonra əsgərlərlə də söhbət edirəm. Onlar burada yaradılan şəraitdən son dərəcə məmnun olduqlarını, həkimlərin onlara qayğı ilə yanaşdıqlarını bildirdilər.

Tibb məntəqəsində hərbi qulluqçuların sağlamlığının qorunması üçün qarşıya qoyulan vəzifələrin yüksək peşəkarlıq və keyfiyyətlə yerinə yetirilməsi üçün bütün imkanlardan lazımınca istifadə edilir. Vətən torpağını qorumaq müqəddəs və şərəfli olduğu kimi, onun müdafiəçisinin sağlamlığı keşiyində dayanmaq da şərəfdir.

**Məhəmməd KAZIMOĞLU,**
**"Azərbaycan Ordusu"**

# Azərbaycan Silahlı Qüvvələrində “NATO günləri” keçirilir



*Azərbaycan Silahlı Qüvvələrində NATO-nun Müttəfiq Transformasiya Komandanlığı Qərargahının ekspert qrupu tərəfindən "NATO günləri" tədbiri keçirilir.*

NATO-nun Hərbi Tərəfdaşlıq İdarəsinin qərargah rəisi polkovnik Aleksander Şvabın (Kanada) rəhbərlik etdiyi nümayəndə heyəti Silahlı Qüvvələrin Hərbi Akademiyasını, Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini və Hərbi Dəniz Qüvvələri komandanlığını ziyarət edəcəkdir.

Tədbir çərçivəsində Silahlı Qüvvələrin zabit və kursant heyəti üçün "NATO bu gün (strukturu və vəzifələri)", "Azərbaycan-NATO əməkdaşlığı", "NATO-nun arzu etdiyi strateji təsir", "NATO-nun mövcud Dəniz Qüvvələri", "NATO Varşava Sammitindən sonra, NATO-nun Tərəfdaşlıq Siyasəti və Cənubi Qafqaz", "Qlobal kiber-inkişaf və NATO-nun cavabı" mövzularında mühazirələr oxunacaq.

Azərbaycan Silahlı Qüvvələrində "NATO günləri" noyabrın 25-dək davam edəcək.

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***21 noyabr 2017-ci il.***

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 131 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonunun Şavarşavan, Voskevan kəndlərində və adsız yüksəkliklərdə, İcevan rayonunun Berkaber, Paravakar kəndlərində yerləşən mövqelərdən Ağstafa rayonunun Köhnəqışlaq, Qazax rayonunun Fərəhli, Quşçu Ayrım, Aşağı Əskipara, Məzəm və Qızılhacılı kəndlərində, Berd rayonunun Mosesqex, Çinari, Ayqedzor kəndlərində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Tovuz rayonunun Əlibəyli, Koxanəbi, Muncuqlu, Qaralar kəndlərində və adsız yüksəkliklərdə, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Göyəli, Zamanlı kəndlərində və adsız yüksəkliklərdə yerləşən mövqeləri-miz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Ağdam rayonunun Tağıbəyli, Şıxlar, Baş Qərvənd, Cəvahirli, Qaraqaşlı, Novruzlu, Yusifcanlı, Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Aşağı Veysəlli, Qobu Dilağarda, Qaraxanbəyli, Horadiz, Cəbrayıl rayonunun Nüzgar və Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

# Həzrədən səngərə, səngərdən əbədiyyətə

(esse)



Dövlətə, dövlətçiliyə, Vətənə, xalqa ad olan sevgi yaşarı sevgidi. Şəhidlərin Vətən sevgisi kimi...

Qusarın Həzrə kəndində anadan olmuşdu Çingiz Salman oğlu Qurbanov...

Azərbaycan Texniki Universitetində Azərbaycanın Milli Qəhrəmanı Çingiz Qurbanova həsr olunmuş "Çin olan yuxu" sənədli filminin təqdimat mərasimində eşitdiklərimi, Əməkdar İncəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü Abdulla Qurbaninin qəhrəmana həsr olunmuş "Çingiz dastanı" kitabından oxuduqlarımı xatırlayıram. İstər kitabda oxuduqlarım, istərsə də sənədli filmdə eşitdiklərim təsdiqləyir ki, Çingiz aprel döyüşlərini həmişə qürurla xatırlayırmış, o döyüşləri xatırlada-xatırlada xidmət edirmiş. Şəhidliyindən sonra xidmət etdiyi postda əsgərlərlə söhbətləşəndə eşitdiklərim düşür yadıma: Çingiz deyirdi ki, torpaqlarımız işğaldan azad edilməyincə yuxularımız bizə haramdı. Bu yaşda cavanın düşüncələrinə necə həsəd aparmayaydım? Bu düşüncələrin işığını necə min illərin o üzündən düşən nur bilməyəydim? "Məndən ötən sənə dəydi, Səndən ötən mənə dəydi, Məndən, səndən ötən zərbə, Vətən, Vətən, sənə dəydi" misralarını əsgərlərin dediklərinə yedək bilmişdim. Onda əsgərlərdən biri "Bu zərbələrin ağrılarını biz sağaltmalıyıq!" - demişdi. Başqa bir əsgər səngərdaşının mətləbini "Çingiz kimi!" kəlmələriylə tamamlamışdı. Onda may ayı idi. İndi payızdı. Noyabrın 24-ü Çingizin ölümsüz ömrünün 24 yaşı tamam olur....

Çingiz Azərbaycan Texniki Universitetinin "Xüsusi texnika və texnologiyalar" fakültəsini bitirmişdi. Müəllimləri ona təhsilini davam etdirməyi məsləhət görmüşdülər. Etiraz etmişdi: "Hərbi xidmətə gedəcəm!". (Professor Ramiz Həsənov: “Biz Çingizi bir neçə aydan sonra universitetimizin magistri kimi görmək istəyirdik”). Bu qətiyyət onun düşüncələrinin haradan qaynaqlandığının təsdiqiydi, şübhəsiz. "Çingiz dastanı" kitabında bir məqamı xatırlamamaq, xatırlatmamaq günahdı: Çingiz orta məktəbdə oxuyanda Sofiya müəllimdən soruşub: "Vətən nədir?". Neçə illər keçəndən sonra məlum olur ki, bu, adi sual deyilmiş. Bu sual formalaşan dünyagörüşün axarını müəyyənləşdirirmiş. Kimsə bilməzdi ki, bu sual zamanında qəhrəmanlığın yolgöstərəni olacaq...

Kitabdan oxuduqlarımın, sənədli filmdən eşitdiklərimin zəmanəti ilə deyə bilərəm ki, Çingiz qeyri-adi uşaq olmayıb, qeyri-adi yeniyetmə, qeyri-adi gənc, qeyri-adi tələbə olmasa da, qeyri-adi Vətən sevgisinə, qeyri-adi qətiyyətə, cəsarətə malik olan əsgər olub. Bu qeyri-adilik qəhrəmanlıq kimi təzahür etdi. 2016-cı il dekabrın 29-u onun da Vətən sevgisini təsdiqləyən tarix oldu. Bu tarixi hərbi xidmətə Qusar rayonundan çağırılmış Çingiz Qurbanov yazdı. Vətən sevgisiylə, torpaqlarımızın işğaldan azad edilməsi naminə yazdı. Döyüşdə dörd düşmən öldürdü. Yaralandı. Şəhid oldu...

Düşmən onun qəhrəmanlığından heyrətlənmişdi. Bu qəhrəmanlığın əsgərlərini vahimələndirəcəyini bilirdi. Nə qədər gizli saxlamağa cəhd göstərsə də, bu qəhrəmanlıq erməni gənclərinin "gözünü qorxutmuşdu"; bir əsgər çəkinmədən, qorxmadan ölümün üstünə yeriyib. Azərbaycan əsgərləri onun qəhrəmanlığını bu və ya başqa formada yenə təkrar edə bilər.

Çingizin nəşi dövlətin, beynəlxalq təşkilatların təkidlərindən sonra fevralın 5-də qaytarıldı...

Çingiz şəhidliyiylə düşmənə xatırlatdı ki, işğal edilmiş torpaqlarımızdan çəkilməyincə Azərbaycanın hər əsgəri, himnimizdə deyildiyi kimi, Vətənə görə canından keçməyə hazırdır; Azərbaycanın hər əsgəri üçün bir and var: Vətən andı, Azərbaycanın hər əsgəri üçün bir amal var: Təki Vətən yaşasın!..

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 7 fevral 2016-cı il tarixli sərəncamı ilə Çingiz Qurbanova "Azərbaycanın Milli Qəhrəmanı" adı verildi: "Azərbaycan Respublikasının ərazi bütövlüyünun qorunub saxlanmasında xüsusi xidmətlərinə və döyüş tapşırığını yerinə yetirərkən göstərdiyi şəxsi igidliyə görə əsgər Çingiz Salman oğlu Qurbanova "Azərbaycanın Milli Qəhrəmanı" adı verilsin (ölümündən sonra)"...

Abdulla Qurbaninin dediklərini xatırlayır, xatırladıram: Çingiz ilk əsgərdir ki, son mənzilə Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzindən yola salıınır. Bu, əsgərə, qəhrəmana sevginin təzahürü idi. Bu, dövlətin əsgərə, qeyri-adi Vətən sevgisiylə xidmət edən, qeyri-adi Vətən sevgisiylə yaşayan əsgərə qədərsiz ehtiram idi. Bu ehtiram düşüncələrə bir həqiqəti də həkk etdi: Vətən üçün yaşanan ömür ölümsüzdü...

...Çingiz Qurbanovun qəhrəmanlığını hər bir Azərbaycan əsgəri örnək bilir. İllər keçəcək, amma Çingiz Qurbanov adı unudulmayacaq, onun qəhrəmanlığının mahiyyəti yeniyetmələrin, çağırışçıların, əsgərlərin düşüncələrinin şəriksiz istinadgahı olacaq. Bir vaxtlar Çingizin xidmət etdiyi postda əsgərlərlə kəlmələşəndə də, Tovuzun Şəhidlər xiyabanında hərbi səhra paltarı geyinmiş 10-12 yaşlı uşağın dediklərini qürurla dinləyəndə də bunun şahidi oldim...




2017-ci il fevralın 9-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Azərbaycanın Milli Qəhrəmanı Çingiz Qurbanovun ailə üzvlərini qəbul etdi. Dövlət başçısının şəhidə, şəhidliyə, şəhid ailəsinə bu qədərsiz ehtiramı da Vətənə sevgi kimi yaşanıldı. Həmin görüşdə Prezidentin dedikləri dövlətin əsgərə, əsgərin timsalında Silahlı Qüvvələrə verdiyi dəyərdir və bu dəyər hər bir hərbi qulluqçunun mənəvi-psixoloji hazırlığının daha da yüksəlməsində mühüm amil kimi dəyərlidir: "...Bütün Azərbaycan Çingizlə fəxr edir. Mən sizə minnətdaram ki, belə gözəl övlad böyütmüsünüz, Azərbaycana bəxş etmisiniz. Ancaq Çingiz ölməyib, o, bizim ürəyimizdə yaşayır, yaşayacaqdır...".

Müdafiə nazirinin əmri ilə xidmət etdiyi posta Azərbaycanın Milli Qəhrəmanı Çingiz Qurbanovun adı verildi. Əsgərə, şəhid əsgərə ehtiram kimi. Bu postda xidmət edən əsgərlərlə görüşdə müşahidə etdiyim bir məqamı Azərbaycan əsgərinin mənəvi dünyasının işığı bildim: döyüş növbətçiliyinə gedən, döyüş növbətçiliyindən gələn əsgərlər də Çingizin barelyefi önündə ayaq saxlayır, onun ruhuyla kəlmələşir sanki...

"Çingiz dastanı" kitabında oxuduğum bir məlumatı indi də böyük qürurla, böyük sevgilərlə yaşamaqdayam: beş nəfərlik alpinist qrupu Şahdağda dəniz səviyyəsindən 4242 metr yüksəklikdə zirvəyə Azərbaycanın Milli Qəhrəmanı Çingiz Qurbanovun adı yazılmış xatirə lövhəsi bərkidib. İndi bu yüksəklik "Çingiz zirvəsi" adlandırılır. Bu, hər ürəkdə yaşayan Çingizin adını relyefdə də yaşadır...

"Azərbaycanın Milli Qəhrəmanı Çingiz Qurbanov adına post"da Salman Qurbanovun oğlunun barelyefindən üzülməyən baxışlarını xatırlayıram, oğlunun ruhuyla kəlmələşməsi düşür yadıma: "Mənim oğlum idin, Vətənin oğlu oldun, oğul...". O kövrək kəlmələri tamamlayan "Təki Vətən yaşasın..." kəlmələrini Vətən sevgisinin işığı bilirəm...

1994-cü il noyabrın 24-də Qusar rayonunun Həzrə kəndində anadan olmuşdu Çingiz...

2016-cı ildə Azərbaycan Texniki Universitetini bitirmişdi...

2016-cı ilin iyulunda həqiqi hərbi xidmətə çağırılmışdı...

2016-cı il dekabrın 29-da şəhid oldu.

Qusarda "Azərbaycanın Milli Qəhrəmanı Çingiz Qurbanov küçəsi...

Qusarda "Azərbaycanın Milli Qəhrəmanı Çingiz Qurbanov adına tam orta məktəb"...

Tovuzda "Azərbaycanın Milli Qəhrəmanı Çingiz Qurbanov adına küçə"...

Mübariz İbrahimovun qəhrəmanlığı Mübarizləşmə təyini yaratdı, Çingiz Qurbanovun qəhrəmanlığı isə Çingizləşmə...

Dünən Azərbaycanın Milli Qəhrəmanı Çingiz Qurbanovun anadan olduğu gün idi...

..."Həzrədən səngərə, səngərdən əbədiyyətə" essesini ölümsüz ömürə ehtiram bilin...

**Rəşid HÜSEYNOV,**
**əməkdar jurnalist**

# Müddətdən artıq həqiqi hərbi xidmət keçmək istəyənlərin nəzərinə

Müdafiə Nazirliyinin hərbi hissələrinə müddətdən artıq həqiqi hərbi xidmətə könüllü daxil olmaq arzusunda olan müddətli həqiqi hərbi xidmətini başa vurmuş, ümumi və ya tam orta təhsilli, 28 yaşınadək vətəndaşlar 11 dekabr 2017-ci il tarixdən 4 yanvar 2018-ci il tarixədək ərizə ilə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzində fəaliyyət göstərən qəbul komissiyasına müvafiq sənədlərlə birlikdə müraciət edə bilərlər.

"Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularının hazırlığı kursu"na qəbul olunmaq üçün müraciət etmiş vətəndaşlar Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzində fəaliyyət göstərən qəbul komissiyası tərəfindən hərbi xidmətə yararlılıq dərəcələrinin müəyyən edilməsi məqsədilə Müdafiə Nazirliyinin Hərbi Həkim Komissiyasına göndərilirlər. Hərbi Həkim Komissiyasının qərarına əsasən hərbi xidmətə yararlı hesab edilmiş şəxslər qəbul imtahanlarına buraxılırlar.

Fiziki hazırlığı, ümumi bilik səviyyəsi, düşünmə qabiliyyəti, peşə maraqları, ünsiyyət qurmaq və qərar qəbuletmə bacarıqları, həmçinin fərdi-psixoloji və digər keyfiyyətlərin öyrənilməsi məqsədilə keçirilən imtahanları müvəffəqiyyətlə vermiş namizədlər "Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularının hazırlığı kursu"na qəbul edilirlər.

"Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularının hazırlığı kursu"nu müvəffəqiyyətlə başa vuran namizədlərlə 3 (üç) il müddətinə könüllü qaydada əsgərlərin, matrosların və çavuşların müddətdən artıq həqiqi hərbi xidmətinə qəbul olunmaları barədə bağlaşma bağlanır və onlar ixtisaslarına uyğun müvafiq vəzifələrə təyin olunurlar.

"Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularının hazırlığı kursu"na qəbul olunmaq istəyən namizədlər Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzində fəaliyyət göstərən qəbul komissiyasına müraciət edərkən aşağıdakı sənədləri təqdim etməlidirlər:

- kursa qəbul olunmaq barədə ərizə (qəbul komissiyasının sədrinə);
- şəxsən yazılmış tərcümeyi-hal, əlyazma ilə 1 nüsxədə və çap edilmiş 2 nüsxədə;
- xidmət (iş və ya təhsil) yerindən xasiyyətnamə;
- təhsil haqqında sənədin notarial qaydada təsdiq edilmiş surəti - 2 nüsxədə;
- doğum haqqında şəhadətnamənin və şəxsiyyət vəsiqəsinin notarial qaydada təsdiq edilmiş surətləri - 2 nüsxədə;
- nikah haqqında şəhadətnamənin notarial qaydada təsdiq edilmiş surəti (evli olduqda) - 2 nüsxədə;
- uşaqların doğum haqqında şəhadətnamələrinin notarial qaydada təsdiq edilmiş surətləri (uşaq olduqda) - 2 nüsxədə;
- evlər idarəsindən və ya yerli icra hakimiyyəti orqanlarından ailə tərkibi və yaşayış yeri haqqında arayış - 2 nüsxədə;
- 4 ədəd rəngli fotoşəkil (baş geyimsiz, anfas, 2 ədəd 3x4 sm və 2 ədəd 4,5x6 sm ölçüdə);
- psixoloji, nevroloji, narkoloji, vərəm və dəri-zöhrəvi dispanserlərdən (kabinetlərdən) qeydiyyatda olub-olmaması haqqında arayışlar;
- qeydiyyatda olduğu poliklinikadan sağlamlıq haqqında arayış;
- qeydiyyatda olduğu poliklinikadan son 5 (beş) ildə infeksion xəstəliklərlə bağlı müraciət edib-etməməsi barədə arayış;
- hərbi biletin surəti (notarial qaydada təsdiq olunmuş) - 2 nüsxədə.

**Qeyd:** Məhkumluğu olan, əvvəllər bağlaşma əsasında müddətdən artıq həqiqi hərbi xidmətdə olmuş hərbi vəzifəlilərin "Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularının hazırlığı kursu"na qəbul üçün müraciət etməmələri xahiş olunur.

**Ünvan:** Bakı şəhəri, Yasamal rayonu, Şəfaət Mehdiyev küçəsi 76, "Qızıl Şərq" hərbi şəhərciyi (Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzi).

**Müraciət etmə vaxtı:** 2017-ci il dekabrın 11-dən 2018-ci il yanvarın 4-dək hər gün (bayram və bazar günləri istisna olmaqla) saat 09.00-dan 17.00-dək.

**Telefon:** (012) 538-85-62.

# Sloveniyanın Maribor şəhərində Mehdi Hüseynzadənin abidəsi açılıb



Noyabrın 17-də Sloveniyanın Maribor şəhərində general Rudolf Mayster adına xatirə parkında Sovet İttifaqı və Sloveniya qəhrəmanı, Azərbaycanın igid oğlu Mehdi Hüseynzadənin abidəsi açılıb.

Azərbaycanın Avstriya, Sloveniya və Slovakiyadakı səfirliyi, Sloveniya Müharibə Veteranları İttifaqı və Maribor şəhəri meriyasının birgə layihəsi əsasında baş tutan açılış mərasimində Sloveniyadakı diplomatik korpusun, hərbi attaşeliyin nümayəndələri, Sloveniya parlamentinin üzvləri, veteran təşkilatlarının təmsilçiləri, şəhər meriyasının və yerli ictimaiyyətin nümayəndələri iştirak ediblər.

Tədbirin açılışında qeyd edilib ki, İkinci Dünya müharibəsində sloven xalqı böyük qurbanlar verməli olub. Nasist Almaniyası və faşist İtaliyası arasında bölüşdürülən Sloveniyada yerli əhali, həmçinin "Vermaxt" tərkibində müharibədə iştirak etmək üçün səfərbərliyə cəlb olunub. Bu da əhali arasında işğalçılara qarşı nifrət və müqavimətin daha da güclənməsinə səbəb olub ki, nəticədə bu torpaqlar partizan hərəkatının ən geniş vüsət aldığı və böyük uğur qazandığı əraziyə çevrilib. Sloveniyanın azad edilməsində misilsiz şücaətlər göstərmiş Mehdi Hüseynzadə (Mixaylo) öz adını sloven xalqının qəlbinə əbədi olaraq həkk edib. Mixaylo fenomeni və misilsiz qəhrəmanlığı yeni nəsillər üçün örnək olmaqla yanaşı, Azərbaycan və sloven xalqları arasında dostluq bağlarının möhkəmlənməsində xüsusi rola malikdir.

Azərbaycanın Avstriya, Sloveniya və Slovakiyadakı səfiri Qalib İsrafilov çıxışında bildirib ki, Mehdi Hüseynzadənin abidəsinin açılışı iki mühüm məqsədə xidmət edir. Qeyd edilib ki, bu abidə İkinci Dünya müharibəsində canından keçmiş bütün döyüşçülərin əziz xatirəsinin əbədiləşdirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Eyni zamanda, hər iki xalqın ortaq milli qəhrəmanı olan Mehdi Hüseynzadənin abidəsinin Maribor şəhərində ucaldılması Azərbaycan və Sloveniya arasında dostluq münasibətlərini daha da möhkəmləndirəcək. Səfir, həmçinin vurğulayıb ki, bu abidə kompleksi azadlıq uğrunda işğalçılara qarşı mübarizə aparmış qəhrəmanların irsinin gələcək nəsillərə ötürülməsində mühüm əhəmiyyət daşıyır.

Səfir azərbaycanlı iş adamı Artur Abdinova abidənin Maribor şəhərində ucaldılmasına göstərdiyi dəstəyə görə minnətdarlığını bildirib. O, eyni zamanda, abidənin müəllifi heykəltəraş Seyfəddin Qurbanova hazırladığı



əsərə görə və Maribor şəhər meriyasına bu təşəbbüsü dəstəklədiyinə görə təşəkkür edib.

Sonra abidə kompleksinin açılışı olub. Maribor şəhər merinin müavini Saşa Pelko abidənin qarşısında quraşdırılmış rəqəmsal interaktiv lövhənin üzərindəki qırmızı lenti kəsib.

Tədbirdə Maribor şəhərindəki orta məktəblərdən birinin şagirdləri partizanlara həsr olunmuş mahnılar ifa ediblər.

Tədbirin rəsmi açılışından sonra iştirakçılara ziyafət verilib. Həmin gün açılışda iştirak edən Azərbaycan nümayəndə heyəti Maribor şəhərində yerləşən hərbi muzeydə olub, müxtəlif müharibələr dövrünə aid eksponatlarla tanış olublar.

Qeyd edək ki, Mehdi Hüseynzadənin Maribordakı abidəsinin müəllifi görkəmli heykəltəraş, Ukraynanın Xalq rəssamı, Xarkov Dövlət Dizayn və İncəsənət Akademiyasının heykəltəraşlıq kafedrasının müdiri Seyfəddin Qurbanovdur. Abidənin qarşısında quraşdırılmış rəqəmsal interaktiv tablo dünyada ictimai parklarda açılan ilk rəqəmsal abidələrdən sayılır. İnteraktiv tabloda İkinci Dünya müharibəsi ilə bağlı ümumi məlumatlarla yanaşı, Mehdi Hüseynzadənin həyat və döyüş yolunu əks etdirən bütün məlumatlar öz əksini tapıb. Lövhədəki məlumatlar mütəmadi olaraq yenilənəcək.

# Ermənistanda gənclər orduda xidmət etmək istəmirlər

*Ermənistan gəncləri orduda xidmət etmək istəmirlər. İrəvanda bununla bağlı etirazlar artıq on gündür davam edir. Gənclər birmənalı şəkildə orduda xidmətdən möhlət hüququnun məhdudlaşdırılmasının əleyhinədirlər. Tələblərinə əhəmiyyət verilmədiyini görən tələbələr dərslərdən imtina edir, yürüşlər təşkil edir, yolları bağlayır, aclıq aksiyası keçirirlər.*



AZƏRTAC xəbər verir ki, "express.armenian" qəzeti gənclərin hərbi xidmətdən yayınma səbəblərini araşdırıb. Bu barədə dərc olunan məqalədə bildirilir ki, gəclərin aksiyası sadəcə bəhanədir. Onlar təhsillərini davam etdirmək yox, hərbi xidmətə getməmək uğrunda mübarizə aparırlar. Bunu heç kim dilə gətirmək istəmir. Çünki reallığı etiraf etməkdən qorxurlar. Bəs səbəb nədir? Qəzet yazır ki, gənclər hərbi xidmət keçmək istəməməkdə haqlıdırlar. Çünki hökumət onların təhlükəsizliyinə zəmanət vermir. Bütün hərbi hissələrdə geyim, qida, istilik, təmizlik problemləri var. Övladları hərbi xidməti başa vuranadək valideynlər müflis olurlar. Əsgərlər teztez təhqir edilirlər, incidilirlər. Bu da sui-qəsd hallarının sayını artırır. Ona görə də gənclər həyatlarını boş yerə təhlükəyə atmaq istəmirlər. Əksər valideynlər övladlarını yetkinlik yaşına çatmamış ölkədən qaçırırlar. Nəticədə Ermənistanın hərbi hissələrində gənclərin sayı azalır. İşğalçı ölkənin hərbi sahəsi indi muzdla xidmət edən 45-55 yaşlıların ümidinə qalıb. Onlar isə 18-20 yaşlı gənclərlə kobud rəftar edirlər. Bunun isə çox vaxt mənfi nəticələri olur.

Noyabrın 14-də Gümrüdəki 102 saylı hərbi hissədən iki hərbçi itkin düşüb. Onların zabitləri tərəfindən incidildiyi bildirilir. İki gündür axtarışlara baxmayaraq, hərbçilərdən xəbər yoxdur. Bu ilin aprelində də 102 saylı hərbi hissədən hərbçilər itkin düşüb. Bir hərbi qulluqçu isə naməlum səbəbdən həyatını itirib. Oxşar hallar Ermənistanda çoxalıb.

Rəsmi açıqlamaya görə, 2017-ci ilin yanvar-oktyabr aylarında Ermənistan silahlı qüvvələrində müxtəlif səbəblərdən 54 nəfər ölüb, 88 nəfər isə yaralanıb. Lakin müstəqil mənbələr bu rəqəmlərin iki-üç dəfə çox olduğunu bildirirlər. Bütün bunları bilən tələbələr, gənclər hərbi xidmətdən, xüsusilə Azərbaycanın işğal olunmuş Dağlıq Qarabağ bölgəsində xidmətdən imtina edirlər.

# İdman

## "Azəryol" komandasının qadın həndbolçuları "Çağırış Kuboku"nda ilk oyunda qələbə qazanıb




"Azəryol" klubunun qadın həndbolçuları "Çağırış Kuboku" uğrunda ilk matçını keçirib.

Noyabrın 18-də Lüksemburqun "HB Düdelanj" komandasının qonağı olan Azərbaycan təmsilçisi görüşdən 36:15 hesabı ilə qalib ayrılıb.

"Dudelanj" arenasında keçirilmiş görüşün baş hakimləri yunanıstanlı Mixail Mertinian və Evangelos Sirepisios olub. Avropa Həndbol Federasiyasını (EHF) almaniyalı Frank Bölhoff təmsil edib.

## Azərbaycan idmançısı gimnastika üzrə tamblinq yarışlarının qalibi olub



Bolqarıstanın paytaxtı Sofiyada batut gimnastikası və tamblinq (akrobatik cığırda tullanma) üzrə müxtəlif yaş kateqoriyaları arasında ümumdünya yarışları keçirilir.

Nüfuzlu yarışlar idman aləmində həm də gənclər arasında dünya çempionatı kimi tanınır.

Azərbaycanı bu mötəbər turnirdə təmsil edən 21 yaşlı Mixail Malkin bütün rəqiblərinə qalib gələrək tamblinq üzrə yarışların qızıl medalını qazanıb.

Ölkəmiz yarışda beş idmançı ilə təmsil olunur. Turnirin sonuncu günü - noyabrın 19-da daha iki idmançımız - 12 yaşlı Adil Hacızadə və 11 yaşlı Zeynəb Qasımlı ümumdünya yarışlarında mübarizə aparacaqlar.

## Yeniyetmə cüdoçular arasında ölkə birinciliyinə yekun vurulub



"Sərhədçi" İdman Olimpiya Mərkəzində yeniyetmə cüdoçular arasında Azərbaycan birinciliyinə yekun vurulub.

Yarışın sonuncu günündə 119 yeniyetmə cüdoçu medallar uğrunda mübarizə aparıb.

Birincilikdə 73, 81, 90 kiloqram və 90 kiloqramdan yuxarı çəki dərəcələrində qaliblər müəyyənləşib. Hacıbala Cəbrayılov, İbrahim Ağakişiyev, Yaqub İsmayılzadə və Toğrul Salmanov ölkə birinciliyində son günün qalibi olublar.

## Güləşçilərimiz "Alans" beynəlxalq turnirində iki medal qazanıblar



Rusiyanın Vladiqafqaz şəhərində sərbəst güləş üzrə "Alans" beynəlxalq turniri keçirilib. Baş məşqçi Firdovsi Umudov və məşqçi Rövşən Hacıyevin rəhbərliyi altında turnirdə iştirak edən yığma komandamızın üzvləri 1 gümüş və 1 bürünc medala sahib olublar.

97 kiloqram çəkidə yarışan Olimpiya çempionumuz Şərif Şərifov finaladək bütün rəqiblərini tam üstünlüklə məğlub edib. Finalda yerli idmançı Vladislav Baytsayevlə gərgin keçən qarşılaşma 1:1 hesablı bərabərliklə başa çatıb. Sonuncu xalı qazandığından qələbə rəqibə verilib və təmsilçimiz gümüş medalla kifayətlənib. Turnirdə 57 kiloqram çəkidə yarışan Azərbaycan təmsilçisi Georgi Edişeraşvili isə turnirin bürünc medalına sahib olub.

Hakim kimi görüşlərin idarə edilməsində ölkəmizi beynəlxalq dərəcəli hakim Zaur Şərifov təmsil edib. I-S kateqoriyalı hakim Hicran Şərifov isə Dünya Güləş Birliyinin qərarına əsasən, hakim-instruktor kimi turnirin gedişinə nəzarət edib.

**AZƏRTAC-ın materialları əsasında**

**Məsul katib**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
baş leytenant
Ceyhun CƏFƏRLİ

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 583
Nüsxə 4600